# *Mövlud ÇAVUŞOĞLU:* "Türkiyə bundan sonra da Azərbaycanın yanında olacaq"

"Türkiyə bundan sonra da Azərbaycanın yanında olacaq". AZƏRTAC xəbər verir ki, bunu noyabrın 12-də keçirilən mətbuat konfransında Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu deyib.



Nazir bildirib ki, ATƏT-in Minsk qrupu proseslərdən nəticə çıxarmalıdır. Minsk qrupunun həmsədr ölkəsi Fransa birtərəfli mövqe tutur, hətta atəşkəsdən sonra da tərəfsizlik nümayiş etdirmir. Son razılaşmadan sonra da Fransa Ermənistanı dəstəkləyir, hətta Türkiyəni ittiham edir. Bundan sonrakı prosesdə heç bir ölkə haqsız şəkildə Ermənistanı dəstəkləyərək prosesi pozmağa çalışmamalıdır.

Azərbaycan.- 2020.- 13 noyabr.- S.5.